# ƏDLİYYƏ

www.justice.gov.az

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı

№ 03 (264) mart 2026


## Nazir Fərid Əhmədov Qobustan rayonunda vətəndaşları qəbul edib





**Ədliyyə naziri Fərid Əhmədov 6 mart tarixində Qobustan rayonunda vətəndaşları qəbul edib.**

Qəbuldan əvvəl nazir Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Qəbulda Sumqayıt şəhər, Qobustan, Abşeron, Xızı, Qubadlı və Zəngilan rayonlarından ümumilikdə 40 vətəndaşın ədliyyə fəaliyyəti ilə, eləcə də ədliyyə orqanlarında işə qəbulla bağlı müraciəti dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı Nazirliyin aidiyyəti struktur qurumlarının rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, qəbul mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilib.



## Ədliyyə nazirinin müavini videoqəbul keçirib





**Ədliyyə Nazirliyi vətəndaş məmnunluğunun artırılması, ədliyyə orqanlarına əlçatanlığın təmin olunması, regionlarda yaşayan vətəndaşların müraciətlərinə operativ və yerində baxılması məqsədilə mütəmadi olaraq videoqəbullar təşkil edir.**



Martın 5-də Nazirliyin Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsi və regional ədliyyə idarələrinin təşkilatçılığı ilə ədliyyə nazirinin müavini Abiddin Hüseynov tərəfindən Lənkəran, Bərdə, Gəncə və Xaçmaz regional ədliyyə idarələri ilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videokonfrans vasitəsilə qəbul keçirilib.

Virtual qəbul məntəqələri vasitəsilə keçirilən videoqəbulda Notariat, qeydiyyat və reyestr baş idarəsi və Tibb baş idarəsinin fəaliyyət istiqamətləri ilə bağlı vətəndaşların müraciətləri dinlənilib, vətəndaşlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.

Qəbula qatılan vətəndaşlar belə görüşlərin region sakinləri üçün əhəmiyyətini vurğulayıb, operativ həll mexanizmlərindən məmnunluqlarını ifadə ediblər.

Regionlarda yaşayan vətəndaşlar videoqəbullarda iştirak etmək üçün qebul@justice.gov.az elektron poçt ünvanına və ya Nazirliyin regional ədliyyə idarələrinə müraciət etməklə qəbula yazıla bilərlər.

## Ədliyyə Nazirliyinin "881" Çağrı Mərkəzində mart ayında xidmət səviyyəsi 90 faizi keçib

**Ədliyyə Nazirliyinin "881" Çağrı Mərkəzi müraciətlərin obyektiv araşdırılması və cavablandırılması, fəaliyyətin təkmilləşdirilməsi üçün təhlillərin aparılması və vətəndaş məmnunluğunun artırılmasına xidmət edir.**




Çağrı Mərkəzi iş vaxtı ərzində fasiləsiz olaraq Nazirliyin bütün fəaliyyət sahələri üzrə vətəndaşların müraciətlərinin cavablandırılmasını və yönləndirilməsini həyata keçirir.

Mart ayı ərzində "881" Çağrı Mərkəzinə məhkəmə qərarlarının icrası, notariat, qeydiyyat, penitensiar sahə, bələdiyyələrin fəaliyyəti, məhkəmə ekspertizası, probasiya və digər aidiyyəti sahələr üzrə daxil olan 16.052 müraciətdən 15.818-si cavablandırılıb. Vətəndaşlara göstərilən xidmət səviyyəsi (daxil olan zənglərin 30 saniyə ərzində cavablandırmaya qəbul faizi) 90.57 faiz olub, vətəndaş müraciətləri ilə bağlı orta xidmət müddəti 1 dəqiqə 47 saniyə təşkil edib.

Bundan başqa, Çağrı Mərkəzində müraciətlərin birbaşa cavablandırılması ilə yanaşı ən son innovativ həlləri əks etdirən proqram təminatı vasitəsilə interaktiv səsli menyu, "geriyə zəng" və "zəng sifarişi" xidmətləri ilə ay ərzində 234 itirilmiş zənglə əks əlaqə yaradılıb və qeyri-iş günlərində müraciət edən 891 vətəndaşın suallarının cavablandırılması təmin edilib.

Qeyd edək ki, xidmət keyfiyyətinin dəyərləndirilməsi məqsədilə zəng bitdikdən sonra Çağrı Mərkəzi tərəfindən vətəndaşlara SMS göndərilir. Vətəndaşlar həmin SMS-dəki linkə daxil olub qısa sualları cavablandıraraq və əlavə şərh yazaraq göstərilən xidməti qiymətləndirə bilərlər.

Ədliyyə Nazirliyi Çağrı Mərkəzinin inkişaf etdirilməsi, qanunvericiliyin tələblərinə və müasir standartlara uyğun təşkili, vətəndaş məmnunluğunun, operativliyin və göstərilən xidmətin keyfiyyətinin artırılması üçün davamlı olaraq tədbirlər həyata keçirir.

# Amnistiya aktı 18 mindən çox şəxs barəsində tətbiq edilib

**”Konstitusiya və Suverenlik İli” münasibətilə amnistiya elan edilməsi haqqında Milli Məclisin 19 dekabr 2025-ci il tarixli Qərarı 22 dekabr 2025-ci il tarixdən 31 mart 2026-cı il tarixədək prokurorluq və məhkəmə orqanları ilə birgə Ədliyyə Nazirliyinin Penitensiar və Probasiya xidmətləri, habelə İstintaq idarəsi üzrə 18.203 şəxs barəsində tətbiq olunub.**




Amnistiya tətbiq olunan şəxslərin 5.310-u müəyyən müddətə azadlıqdan məhrumetmə, 10.226-sı isə azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzalardan azad edilib. Bundan əlavə, azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş 2.648 nəfərin cəzası 6 ay azaldılıb. 19 nəfər isə cinayət məsuliyyətindən azad edilib (ədliyyə orqanlarının istintaq aidiyyəti üzrə).

Cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslərdən Vətən müharibəsində iştirak etdiyinə görə 20 nəfər və qərar qüvvəyə mindiyi günədək 60 yaşına çatdığına görə 18 nəfər də cəzadan azad edilənlər arasında yer alıb.

Amnistiya tətbiq olunmuş şəxslərdən 1.309-u böyük ictimai təhlükə törətməyən, 15.996-sı az ağır, 898-i ağır cinayətlər törətmiş şəxslərdir.

Ümumilikdə amnistiya tətbiq olunmuş şəxslərdən 17.292-si kişi (onlardan 86-sı yetkinlik yaşına çatmayan şəxslərdir), 911-i qadındır (onlardan 1-i yetkinlik yaşına çatmayan şəxsdir).

Amnistiya aktının icrası davam etdirilir.

# Probasiya nəzarətində olan şəxslərin əmək bazarına inteqrasiyası müzakirə olunub

**Probasiya nəzarətində olan şəxslərin sosial adaptasiyasının gücləndirilməsi, onların əmək bazarına inteqrasiyasının təmin edilməsi və məşğulluq imkanlarının genişləndirilməsi məqsədilə Ədliyyə Nazirliyinin Probasiya xidməti dövlət qurumları və sahibkarlıq subyektləri ilə əməkdaşlığı davam etdirir.**

Bu çərçivədə martın 16-da Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsində olan ”Azəralüminium” MMC-nin direktoru Maksim Cavadov ilə Ədliyyə Nazirliyinin Probasiya xidmətinin rəisi Vüqar Ağayev arasında görüş keçirilib.

Görüşdə probasiya nəzarətində olan şəxslərin cəmiyyətə reinteqrasiyasının gücləndirilməsi baxımından dövlət qurumları ilə sahibkarlıq subyektləri arasında əməkdaşlığın əhəmiyyəti vurğulanıb. Həmçinin ”Azəralüminium” MMC-nin ölkəmizdə müxtəlif sosial layihələr həyata keçirməklə, regionlarda məşğulluğun artırılması istiqamətində əhəmiyyətli işlər gördüyü, dayanıqlı sosial-iqtisadi inkişafa mühüm töhfələr verdiyi qeyd olunub.

Görüşdə probasiya nəzarətində olan şəxslərin peşə hazırlığına cəlb olunması, əmək bacarıqlarının artırılması və məşğulluq imkanlarının genişləndirilməsi müzakirə edilib. ”Azəralüminium” MMC tərəfindən elektrik montyoru, elektrik-qaz qaynaqçısı, tornaçı və cilalayıcı ixtisasları üzrə peşə təlimlərinin təşkili və probasiya nəzarətində olan şəxslərin əmək bazarına cəlb edilməsi imkanları nəzərdən keçirilib.



Peşə təlimi və məşğulluq tədbirlərinin ”Azəralüminium” MMC-nin istehsalat sahəsinin Gəncə şəhərində yerləşməsi nəzərə alınaraq, əsasən Gəncə şəhəri və ətraf bölgələrdə həyata keçirilməsi ilə bağlı tərəflər arasında ilkin razılıq əldə olunub. Qeyd olunub ki, bu təşəbbüs probasiya nəzarətində olan şəxslərin peşə bacarıqlarının inkişafına və cəmiyyətə uğurlu reinteqrasiyasına töhfə verəcək.

# Lənkəranda hakimlər üçün mülki hüquq və mülki proses üzrə təlimlər keçirilib

**Ədliyyə Nazirliyinin təşkilatçılığı, Məhkəmə-Hüquq Şurası və Ali Məhkəmənin birgə dəstəyi ilə Lənkəran şəhərində hakimlər üçün mülki hüquq və mülki proses hüququ mövzularını əhatə edən təlimlər keçirilib.**



Təlimləri Almaniyanın Martin Lüter adına Halle-Vittenberq Universitetinin professoru Azər Əliyev və həmin Universitetin Hüquq texnologiyaları laboratoriyasının rəhbəri, professor Konstantin Branovitski tədris ediblər.

Təlimlər hakimlərin təlimçi kimi inkişaf etdirilməsi və sonradan onların vasitəsilə digər hakimlərin, eləcə də hakimliyə namizədlərin bilik və bacarıqlarının artırılması məqsədilə təşkil olunub. 5 gün davam edən təlimlərdə müxtəlif instansiyalar üzrə 19 hakim iştirak edib.



Qeyd edək ki, ölkəmizdə hakim korpusunun komplektləşdirilməsi, məhkəmə hakimiyyətinin peşəkar hakimlərlə təmin edilməsi və bu istiqamətdə hakimlərin hazırlığının davamlı olaraq təkmilləşdirilməsi məqsədilə hakimliyə namizədlərin ilkin uzunmüddətli təlimi və hakimlərin davamlı tədrisi Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilir.

# Ədliyyə Nazirliyi bələdiyyələrə metodoloji dəstəyi davam etdirir

**Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş baş idarəsində "Bələdiyyələrdə idarəetmənin təkmilləşdirilməsi: metodoloji dəstək və xarakterik nöqsanların müzakirəsi" mövzusunda seminar-müşavirələr keçirilib. Tədbirlərdə Bakı bələdiyyələrinin, Bələdiyyələrin Milli Assosiasiyalarının nümayəndələri və "Bələdiyyələrin fəaliyyətinin təbliği" İctimai Birliyinin sədri iştirak ediblər.**

Seminarlar zamanı 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə bağlı təsdiq olunmuş Tədbirlər Planından, həmçinin "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"ndan irəli gələn məsələlər müzakirə edilib. Bu çərçivədə yerli özünüidarəetmə orqanlarında texnoloji potensialın gücləndirilməsi, əməkdaşların rəqəmsal bacarıqlarının artırılması və fəaliyyətin dövlət səviyyəsində müəyyən edilmiş rəqəmsal inkişaf prioritetlərinə uyğun qurulmasının vacibliyi vurğulanıb.



Bununla yanaşı, "2025-ci il üzrə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı illik məruzə"nin Milli Məclisdə müzakirəsinin nəticələri, deputatlar tərəfindən səsləndirilən təkliflər və görüləcək tədbirlər barədə məlumat verilib.

Eyni zamanda, inzibati nəzarət və metodoloji yardımın nəticələrinin təhlili əsasında bələdiyyələrdə vergilərin düzgün hesablanması, büdcələrin proqnozlaşdırılması və icrası ilə bağlı qanunvericiliyin tələblərinə riayət olunmasının, risk yaradan halların qarşısının alınmasının, vətəndaş məmnunluğunun artırılmasının və etik davranış qaydalarına əməl edilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Tədbirlərdə 56 nəfər iştirak edib. Sonda bələdiyyə nümayəndələrinin fikir və təklifləri dinlənilib.

# Beynəlxalq axtarışda olan şəxs Monteneqroda tutularaq Azərbaycana ekstradisiya edilib

**Ədliyyə Nazirliyi tərəfindən xarici dövlətlərin aidiyyəti qurumları ilə beynəlxalq axtarışa verilmiş, cinayət törədilməsində ittiham olunan şəxslərin tutularaq ölkəmizə gətirilməsi ilə bağlı səmərəli əməkdaşlıq tədbirləri davam etdirilir.**

Martın 18-də İnterpolun Azərbaycan Respublikasındakı Milli Mərkəzi Bürosu tərəfindən beynəlxalq axtarışa verilən və yeri müəyyən edilən daha bir şəxsin Nazirlik tərəfindən Azərbaycana ekstradisiyası həyata keçirilib.

Belə ki, 2020-2022-ci illərdə "Aqrar İnnovasiya və Təchizat şirkəti" ASC-nin Salyan rayonunda yerləşən anbarında işlədiyi müddət ərzində qulluq mövqeyindən istifadə etməklə ona etibar edilmiş əmlakı mənimsəməkdə (Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 179.2.3 və 179.2.4-cü maddələri) ittiham edilmiş Azərbaycan Respublikasının vətəndaşı Mənsimov Ramil Yaqub oğlunun yeri Monteneqroda müəyyən olunub və o, həbs edilib.

Baş Prokurorluğun sorğusu və beynəlxalq prosedurlara uyğun tələb olunan sənədlərin təqdimatından, habelə aparılan danışıqlardan sonra həmin şəxsin ölkəmizə ekstradisiyası ilə bağlı razılıq əldə olunub. Bu da öz növbəsində ölkəmizin beynəlxalq aləmdə mövcud olan nüfuzunu və Monteneqronun ölkəmiz üçün etibarlı tərəfdaş olmasını bir daha təsdiq edir.

Monteneqro Respublikasından ölkəmizə birbaşa reys olmadığından Ədliyyə Nazirliyi tərəfindən Türkiyə Respublikasının səlahiyyətli orqanları ilə danışıqlar aparılaraq, tranzit icazəsi alınıb və Mənsimov Ramil Yaqub oğlu Nazirliyin Beynəlxalq əməkdaşlıq baş idarəsinin və Penitensiar xidmətinin məsul əməkdaşları tərəfindən Monteneqrodan ölkəmizə gətirilərək məhkəmənin həbs qərarına əsasən müvafiq istintaq təcridxanasına yerləşdirilib.

Nazirlik tərəfindən bu sahədə lazımi tədbirlər davam etdirilir.

# QEYRİ-KOMMERSİYA TƏŞKİLATLARININ REYESTR MƏLUMATI

### "Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 26.12.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q14-2262
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən yeni adı: "Azərbaycan Su İdmanı Növləri Federasiyası" ictimai birliyi, qanuni təmsilçisi Əhmədov Vüqar Cəbrayıl oğlu olmuşdur
**Dəyişiklik:** 02.03.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Azərbaycanda alman dilini tədris edən müəllimlər" ictimai birliyi

**Qeydiyyat tarixi:** 14.02.2020-ci il
**Qeydiyyat N-si:** 1120-Q72-3812
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Qurbanova Lətifə Məhərrəm qızı olmuşdur
**Dəyişiklik:** 02.03.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Skal İnternational Baku" ictimai birliyi

**Qeydiyyat tarixi:** 19.11.2009-cu il
**Qeydiyyat N-si:** 1109-Q29-2786
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Quliyev Ruslan Gəray oğlu olmuşdur
**Dəyişiklik:** 03.03.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Əlilliyi olan uşaq və gənclərin idmana inteqrasiyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.06.2016-cı il
**Qeydiyyat N-si:** 1116-Q55-3389
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Məmmədova Ağayeva Aynur Tofiq qızı olmuşdur
**Dəyişiklik:** 03.03.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Sivil Cəmiyyət Naminə" inkişafa yardım ictimai birliyi

**Qeydiyyat tarixi:** 24.12.2008-ci il
**Qeydiyyat N-si:** 1108-Q24-2615
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Ələkbərova Arifə Cəlalovna olmuşdur
**Dəyişiklik:** 04.03.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Həmvətənlilərə Dəstək" ictimai birliyi

**Qeydiyyat tarixi:** 28.09.2018-ci il
**Qeydiyyat N-si:** 1118-Q64-3612
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Quliyev Rövşən Akif oğlu olmuşdur
**Dəyişiklik:** 04.03.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Bələdiyyə Resurs və Təlim Mərkəzi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 05.11.2002-ci il
**Qeydiyyat N-si:** 1403
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əhmədli Arifə Abbasəli qızı olmuşdur
**Dəyişiklik:** 04.03.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Azərbaycan Üzgüçülük Federasiyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 15.03.2005-ci il
**Qeydiyyat N-si:** 1105-Q3-1706
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əliyev Zaur Rafik oğlu olmuşdur
**Dəyişiklik:** 04.03.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi ictimai birliyi

**Qeydiyyat tarixi:** 15.03.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q8-2011
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi İbrahimov Zaur İbrahim oğlu olmuşdur
**Dəyişiklik:** 04.03.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Öndər Gənclər" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.04.2010-cu il
**Qeydiyyat N-si:** 1110-Q31-2848
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Abdulov Fərhad Oktay oğlu olmuşdur
**Dəyişiklik:** 05.03.2026-cı il tarixdə qeydə alınıb

### "Gənclər Şəbəkəsi Təşəbbüsü" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.03.2008-ci il
**Qeydiyyat N-si:** 1108-Q21-2510
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Süleymanov Fuad Rauf oğlu olmuşdur

**Dəyişiklik:** 05.03.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu

**Qeydiyyat tarixi:** 19.02.2018-ci il
**Qeydiyyat N-si:** 1118-QK8-0060
Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məktubu və digər sənədlərə əsasən qanuni təmsilçisi Kazımov Fəxri Xahüseyn oğlu olmuşdur
**Dəyişiklik:** 06.03.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### Tərəfsiz Jurnalistlər ictimai birliyi

**Qeydiyyat tarixi:** 15.03.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q9-2025
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Eyvazov Elşad Səməndər oğlu olmuşdur
**Dəyişiklik:** 06.03.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Addım" gənclərin təşəbbüsünə dəstək ictimai birliyi

**Qeydiyyat tarixi:** 31.01.2014-cü il
**Qeydiyyat N-si:** 1114-Q49-3257
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Quliyev Tural İsgəndər oğlu olmuşdur
**Dəyişiklik:** 10.03.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Xüsusi qayğıya ehtiyacı olan uşaqların gələcəyi naminə" ictimai birliyi

**Qeydiyyat tarixi:** 21.11.2020-ci il
**Qeydiyyat N-si:** 1120-Q74-3863
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi İsazadə Xanım Namiq qızı olmuşdur
**Dəyişiklik:** 10.03.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Psixoloji İnkişaf və Maarifləndirməyə Dəstək" ictimai birliyi

**Qeydiyyat tarixi:** 19.04.2022-ci il
**Qeydiyyat N-si:** 1122-Q79-4032
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Həmidov Kamil Telman oğlu olmuşdur
**Dəyişiklik:** 10.03.2026-cı il tarixdə qeydə alınıb

### "İqtisadi İnkişaf və Sosial Tədqiqatlar Mərkəzi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 19.03.2009-cu il
**Qeydiyyat N-si:** 1109-Q26-2696
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əhmədov İlkin Əyyub oğlu olmuşdur
**Dəyişiklik:** 10.03.2026-cı il tarixdə qeydə alınıb

### "Yasamal-66" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti

**Qeydiyyat tarixi:** 24.05.2023-cü il
**Qeydiyyat N-si:** 1123-MM10-0288
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Sadıqlı Zemfira Əli qızı olmuşdur
**Dəyişiklik:** 11.03.2026-cı il tarixdə qeydə alınıb

### "Azərbaycan-Amerika Gəncləri" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.06.2003-cü il
**Qeydiyyat N-si:** 1103-Q1-1448
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əhmədov Vüqar Vaqif oğlu olmuşdur
**Dəyişiklik:** 11.03.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Hemofiliyalı Xəstələr" ictimai birliyi

**Qeydiyyat tarixi:** 26.05.1997-ci il
**Qeydiyyat N-si:** 955
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni adı: "Hemofiliya və digər Hemostaz Pozuntuları Assosiasiyası" ictimai birliyi, qanuni təmsilçisi Hüseynov Ayaz Azər oğlu olmuşdur
**Dəyişiklik:** 12.03.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Aqrar İnkişaf Könüllüləri" təşkilatı ictimai birliyi

**Qeydiyyat tarixi:** 13.11.2018-ci il
**Qeydiyyat N-si:** 1118-Q64-3621
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Musayev Fuad Əziz oğlu olmuşdur
**Dəyişiklik:** 12.03.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Yasamal-15" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti

**Qeydiyyat tarixi:** 30.07.2017-ci il
**Qeydiyyat N-si:** 1117-MM4-0056
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Tağıyeva Səbinə Sahib qızı olmuşdur
**Dəyişiklik:** 12.03.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Gənclər Mərkəzi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 26.05.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q10-2098
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Qubadzadə Kənan Kamran oğlu olmuşdur
**Dəyişiklik:** 12.03.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Strateji Kommunikasiyalar Mərkəzi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 24.04.2018-ci il
**Qeydiyyat N-si:** 1118-Q62-3568
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Qədirli Anar Ələsgər oğlu olmuşdur
**Dəyişiklik:** 13.03.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Din və Qadın Hüquqları" ictimai birliyi

**Qeydiyyat tarixi:** 22.11.2021-ci il
**Qeydiyyat N-si:** 1121-Q77-3979
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Qardaşova Tünzalə Əlhəddin qızı olmuşdur.
**Dəyişiklik:** 13.03.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "D.Əliyeva adına Azərbaycan Qadınlarının Hüquqlarının Müdafiə Cəmiyyəti" ictimai birliyi

**Qeydiyyat tarixi:** 03.02.1993-cü il
**Qeydiyyat N-si:** 308
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Cəfərova Novella Cəfər qızı olmuşdur
**Dəyişiklik:** 13.03.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Rahib" Xeyriyyə İctimai Birliyi

**Qeydiyyat tarixi:** 14.04.2000-ci il
**Qeydiyyat N-si:** 1291
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Adıgözəlov Rahib Qabil oğlu olmuşdur
**Dəyişiklik:** 13.03.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Azərbaycan Milli Kulinariya Assosiasiyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 28.12.2005-ci il
**Qeydiyyat N-si:** 1105-Q7-1977
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əmiraslanov Tahir İdris oğlu olmuşdur
**Dəyişiklik:** 16.03.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Mədən Sənayesində İnsan Haqları" ictimai birliyi

**Qeydiyyat tarixi:** 13.06.2019-cu il
**Qeydiyyat N-si:** 1119-Q68-3706
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Tağıyeva Vüsalə Səfəralı qızı olmuşdur
**Dəyişiklik:** 16.03.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Səbail-11" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti

**Qeydiyyat tarixi:** 11.05.2023-cü il
**Qeydiyyat N-si:** 1123-MM10-0284
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən yeni hüquqi ünvanı: Bakı şəhəri, Səbail rayonu, Badamdar qəsəbəsi, T.Məmmədov küçəsi, ev 3, 5, qanuni təmsilçisi Hüseynzadə Əli Qabil oğlu olmuşdur
**Dəyişiklik:** 16.03.2026-cı il tarixdə qeydə alınıb

### Xəzər İnkişaf Fondu

**Qeydiyyat tarixi:** 30.06.2010-cu il
**Qeydiyyat N-si:** 1110-Q32-2861
Himayəçilik Şurasının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Mədətov Elmar Tofiq oğlu olmuşdur
**Dəyişiklik:** 17.03.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Nərimanov-27" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti

**Qeydiyyat tarixi:** 03.02.2021-ci il
**Qeydiyyat N-si:** 1121-MM8-0200
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi İbrahimov Şahin Qulu oğlu olmuşdur
**Dəyişiklik:** 17.03.2026-cı il tarixdə qeydə alınıb

## ELAN

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 19 yanvar 2024-cü il tarixli 1124-QK14-0101 nömrə ilə dövlət qeydiyyatına alınmış COP29 Azərbaycan Əməliyyat Şirkəti ləğv edildiyini elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra 60 gün ərzində quruma olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: Bakı şəhəri, K.Kazımzadə, 100a

**Təsisçi:**
Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
**Buraxılışa məsul:**
Rasim Həsənov

**Ünvan:**
Bakı-AZ 1073. İnşaatçılar pr-ti, 1.
Tel: 537-06-40

Qəzetdə qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatlar dərc olunur.
Qəzet ayda bir dəfə çıxır.

Reyestr N 769